# Tarixi ədalətin zəfər çalacağı gün uzaq deyil



***Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 7-də CNN-Türk televiziyasına müsahibəsində jurnalistin döyüş əməliyyatlarında son vəziyyət barədə sualına cavabında hazırda ordumuzun  Azərbaycanın öz ərazi bütövlüyünün bərpası istiqamətində əks-həmlələri nəzərdə tutulan plan əsasında apardığını, artıq bir sıra ərazilərimizin işğaldan azad edildiyini vurğulayıb. Bildirib ki, bu, bir daha onu göstərir ki, xalqımız  işğalla heç vaxt barışmayacaq: "Biz bunu dəfələrlə demişik: Qarabağ bizim tarixi, əzəli torpağımızdır! Təəssüf ki, uzun müddət ərzində aparılan müzakirələr bir nəticəyə gətirib çıxarmadı. Belə olan halda, əlbəttə ki, Azərbaycan təkbaşına öz ərazi bütövlüyünü bərpa etməli idi və bunu edir".***

Dövlətimizin başçısı yuxarıda qeyd edilən müsahibədə indiki müharibənin təsadüfi baş vermədiyi haqqında ətraflı danışıb, bunun məsuliyyətinin Ermənistan üzərinə düşdüyünü bildirib. Qeyd edib ki, işğalçı ölkənin baş naziri Nikol Paşinyan mənfur əməlləri ilə dəfələrlə sülh danışıqlarını pozub. Dağlıq Qarabağda "düşmənin qarşısının alınması" mexanizminin təkmilləşdirilməsi məsələsinin müzakirəsini aparıb, ayrı-ayrı vaxtlarda  "Artsax Ermənistandır, nöqtə" kimi təcavüz xarakterli  şüarlar səsləndirib. Eyni zamanda, Livandan olan erməni ailələrinin Şuşa şəhəri daxil olmaqla işğal olunan ərazilərdə məskunlaşmasına şərait yaratmaqla qanunsuz məskunlaşma siyasətini reallaşdırıb. Bütün bunlarla bərabər, Azərbaycanın yeni ərazilərini işğal etməyə hazırlaşıb. Dövlətimizin başçısı isə bu barədə BMT Baş Assambleyasının tribunasından məlumat verib. Azərbaycan təmkin, konstruktivlik və sağlam düşüncə nümayiş etdirib. Lakin Ermənistan bütün bunlara məhəl qoymayıb. Nəhayət, sentyabrın 27-də Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı növbəti hərbi təxribat törədib, həm mülki əhali, həm də hərbçilər arasında itkilər olub. Düşmən ölkə bu təxribatla Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirdiyini və bununla da özünün faşist mahiyyətini bütün dünyaya göstərib.

Xatırladaq ki, Prezident İlham Əliyev sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı həmin hərbi təxribatı ilə bağlı xalqa müraciət edib. Cənab Prezident çıxışında Ermənistan tərəfindən əvvəllər də əliyalın dinc əhaliyə qarşı belə vəhşiliklər törədildiyini vurğulayaraq, əsas hədəfin bizim yaşayış məntəqələrimiz olduğunu bildirib. Eyni zamanda, erməni işğalçılarının atəş açmaqla Azərbaycan ictimaiyyəti, Azərbaycan vətəndaşları, eləcə də cəbhəboyu yerləşən kəndlərdə, şəhərlərdə yaşayan insanlar arasında təşviş yaratmaq məqsədi güddüklərini açıqlayıb: "Amma tam qətiyyətlə deyə bilərəm ki, – bu gün səhər mən bütün bölgələrdən, cəbhəyanı bölgələrdən məlumat almışam, –Azərbaycan vətəndaşları cəsarət göstərirlər, hər kəs öz yerindədir, ordumuza, dövlətimizə hər an dəstək verməyə hazırdırlar və bunu edirlər".

Ermənistan bu müharibədə Azərbaycanın mülki əhalisini, infrastrukturunu atəşə tutması ilə həm də özünün terrorçu və anti-insani mahiyyətini bütün dünyaya göstərdi. Başqa sözlə, işğalçı dövlərin silahlı qüvvələri Azərbaycana məxsus bəzi yaşayış məntəqələrinə intensiv şəkildə atəş altında saxlamaqla, beynəlxalq hüquq normalarına, habelə müharibə qaydalarına əməl etmədiklərini bir daha təsdiqlədi.

***(ardı 3-cü səhifədə)***

# Tarixi ədalətin zəfər çalacağı gün uzaq deyil

*(əvvəli 1-ci səhifədə)*

Bununla da düşmən beynəlxalq aləmə həm zəifliyini, həm də cinayətkarlığını nümayiş etdirdi. Azərbaycan Prezidenti "CNN-Türk"ün jurnalistinin sualına cavabında bu anti-insani hərəkətlərin səbəbi ilə bağlı deyib: "Məncə, bu, Ermənistan ordusunun acizliyi və Ermənistanın hərbi-siyasi rəhbərlərinin cinayətinin göstəricisidir. Çünki mülki şəxslərə zorakılıq göstərmək, onlara qarşı atəş açmaq, ballistik raketlərlə mülki şəhərləri dağıtmaq müharibə cinayəti sayılır. Bu, onu göstərir ki, Ermənistan döyüş meydanında bizim qarşımızda dura bilmir. Döyüşü uduzur və bizi dayandırmaq, eyni zamanda, mülki əhaliyə qarşı maksimum dərəcədə cinayət törətmək üçün belə çirkin əməllərə əl atır. Siz də qeyd etdiyiniz kimi, Gəncə, Mingəçevir döyüş bölgəsindən uzaqda yerləşən şəhərlərdir. Eyni zamanda, döyüş bölgəsinə yaxın olan şəhərlərimiz hər gün atəşə tutulur. Ən yaxın bölgə Tərtər bölgəsidir və Tərtər şəhərinə gündə mindən iki minə qədər mərmi düşür və bunun əsas məqsədi mülki şəxslərə qarşı törədilən zorakılıqdır. Bu, bir daha Ermənistanın faşist mahiyyətini göstərir, rejimin faşist mahiyyətini göstərir. Ancaq bu, Azərbaycan xalqını qorxutmur, bunun heç bir təsiri yoxdur. O bölgələrdə, o şəhər və kəndlərdə yaşayan soydaşlarımız orada möhkəm dayanıblar. Onların bir sözü var ki, Vətən sağ olsun, torpaqlar tezliklə işğaldan azad edilsin. Onlar sona qədər o yerlərdə qalacaq və ordumuza mənəvi dəstək verəcəklər".

Dövlətimizin başçısı müsahibəsində Azərbaycanın haqq mübarizəsinin erməni xalqı ilə olmadığını bildirib. Vurğulayıb ki, Azərbaycan öz ərazi bütövlüyünün bərpası məqsədilə döyüş aparır və bu istiqamətdə də uğurlar əldə edir. Ordumuz heç vaxt mülki əhaliyə qarşı silah qaldırmayıb. Respublikamızda minlərlə erməni ailəsi yaşayır və onlar Azərbaycan vətəndaşlarıdır. O cümlədən, bu gün Dağlıq Qarabağda yaşayan ermənilər də bizim vətəndaşlardır. Azərbaycan əsasən hərbi hədəfləri nişan götürüb: "Hərbi hədəfləri məhv etmək üçün bizim tam hüququmuz var. Çünki bu hərbi obyektlər bizim ordumuza, şəhərlərimizə böyük ziyan vurub. Ona görə bizim borcumuzdur ki, onları məhv edib əhalimizin təhlükəsiz həyatını təmin edək".

Bu məqamda müsahibədə xüsusi yer alan bir məsələyə də toxunmaq istərdik. Belə ki, BMT-nin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dörd qətnaməsinin heç birini icra etməyən Ermənistan yuxarıda da bildirdiyimiz kimi, mülki insanları atəşə məruz qoymaqla yeni-yeni cinayətlər törədir. Lakin düşmən ölkə bilməlidir ki, Azərbaycan Ordusu erməni faşizminin layiqli cavabını verəcək və verir və onu etdiyi hər cinayətə, vəhşiliyə görə cəzalandıracaq. Bununla əlaqədar Prezident İlham Əliyev CNN-Türk televiziyasına müsahibəsində deyib: "Onların bütün hərbi cinayətləri artıq qeydə alınır. Amma təəssüf ki, beynəlxalq ictimaiyyət bundan əvvəlki dövrdə Azərbaycana və xalqımıza qarşı edilən müharibə cinayətlərinə səssiz qalmışdır. Xocalı qətliamı dünyanın gözü önündə baş vermiş soyqırımıdır. Amma Ermənistanın ovaxtkı hərbi-siyasi rəhbərliyi buna görə məsuliyyətə cəlb edilmədi. Bizim şəhərlərimizin, kəndlərimizin dağıdılması, bir milyondan çox məcburi köçkünün yaranması – bütün bunlara görə beynəlxalq ictimaiyyət hər hansı bir hərəkətə keçmədi. Ona görə də, bu məsələ uzun illərdir öz həllini tapmır. Çünki işğalçı ilə işğala məruz qalan arasında heç bir fərq qoyulmur. Bu gün də erməni silahlı qüvvələrinin bizim şəhərlərimizi və kəndlərimizi atəşə tutması, özü də ballistik raketlərlə atəşə tutması müharibə cinayətidir. Buna görə, əlbəttə ki, Ermənistan rəhbərliyi məsuliyyət daşımalıdır və daşıyacaqdır".

O da qeyd edilməlidir ki, Ermənistanın bu cür qeyri-insani əməlləri, ümumiyyətlə, 30 ilə yaxın bir dövr ərzində torpaqlarımızı işğal altında saxlaması beynəlxalq aləmin bu təcavüzə laqeyd münasibətinin məntiqi nəticəsidir. Çünki Azərbaycan ötən illərdə dəfələrlə işğalçı dövlətə qarşı sanksiyaların tətbiqi ilə əlaqədar çağırışlar etsə də, sadəcə, bu, necə deyərlər, qulaq ardına vurulub, məsələyə laqeyd münasibət bəslənilib. Ermənistan isə bu vəziyyətdə daha da azğınlaşıb, dəfələrlə təxribatlar törədib. Prezident İlham Əliyev müsahibəsində bu məsələyə də xüsusi diqqət çəkib: "Biz dəfələrlə demişik ki, işğalçı dövlətə, Ermənistana sanksiyalar tətbiq edilməli idi. Əgər vaxtında sanksiyalar tətbiq edilsəydi, bəlkə də bu məsələ çoxdan həll olunardı. Ermənistana qarşı çox ciddi təzyiq göstərilməliydi, sözdə deyil, əməldə. Amma təəssüf ki, bu, olmadı. Ona görə bu proses 30 il çəkdi. Otuz il heç bir nəticə verməyən danışıqlar artıq mənasını itirməkdədir. Bundan əlavə, son dönəmdə Ermənistanın hərbi-siyasi rəhbərliyi həm təcavüzkar hərəkətlərlə, eyni zamanda, aqressiv bəyanatlarla danışıqlar prosesini məhv etdi. Yəni, ona çox böyük zərbə vurdu. "Qarabağ Ermənistandır" demək, əslində, müzakirələrə son qoymaq deməkdir. Çünki müzakirələrin əsas mahiyyəti ondan ibarətdir ki, işğal edilmiş torpaqlar tədricən, mərhələli qaydada Azərbaycana qaytarılmalıdır. Bu, əsas prinsiplərdə təsbit olunub. "Qarabağ Ermənistandır" demək faktiki olaraq bu prosesə son qoyur…".



Azərbaycan Prezidenti sözügedən müsahibəsində, eyni zamanda, bizim haqq savaşımıza, torpaqlarımızın işğaldan azad edilməsi uğurunda apardığımız mübarizəyə bir sıra dövlətlərin, eləcə də beynəlxalq təşkilatların ədalətsiz yanaşmalarını diqqətə çatdırıb. Həmçinin erməni lobbi təşkilatları tərəfindən bəzi ölkələrin hökumətlərinə təsir edildiyini, Azərbaycana qarşı qara təbliğat kampaniyası aparıldığını da xüsusi vurğulayıb. Dövlətimizin başçısı, eyni zamanda, bizə qarşı səsləndirilən ittihamlara da münasibət bildirib: "Rəsmi açıqlamalarda səsləndi ki, sanki Azərbaycanla Türkiyə birlikdə bölgəyə terror qruplarının nümayəndələrini gətirib. Halbuki bunun heç bir sübutu yoxdur. O açıqlamalardan artıq on gün keçir. Bu günə qədər bizə heç bir sübut verilməyib. Bu, bizə qarşı edilən haqsızlıqdır. Bu, yalan məlumat əsasında ifadə edilən açıqlamadır. Bu ya yoxlanılmamış, təsdiqini tapmamış məlumat əsasında deyildi, ya da ki, bu qəsdən deyildi. Bunu mən deyə bilmərəm. Hər halda, hər bir ölkə özünü müdafiə etməlidir. Bizə qarşı edilən haqsızlıq təbii ki, biz tərəfdən cavablandırılır. Biz buna səssiz qala bilmərik. Eyni zamanda, başqa bir açıqlama da olmuşdur ki, "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir". Bu da beynəlxalq qanunlara tamamilə zidd olan bir açıqlamadır. Çünki Dağlıq Qarabağ bizim torpağımızdır. Bir ölkə öz torpağını necə fəth edə bilər? Bu cür sözlər Minsk qrupunun mandatına tamamilə zidd olan açıqlamalardır. Biz, sadəcə olaraq, istəyirik ki, 30 ilə yaxın öz yurdlarından didərgin salınmış məcburi köçkünlərimiz öz evlərinə qayıtsınlar, Azərbaycanın ərazi bütövlüyü təmin edilsin. Azərbaycanın ərazi bütövlüyü başqa ölkələrin ərazi bütövlüyü qədər əhəmiyyətlidir".

Azərbaycan indiki əks-hücumdan əvvəl də dəfələrlə Ermənistan tərəfindən hərbi təxribatlara məruz qalıb. Son üç ayda ölkəmizə üç hücum edilib. Biri iyulda Ermənistan-Azərbaycan sərhədində, Dağlıq Qarabağ regionundan uzaqda törədilib və düşmənin məqsədi respublikamızın yeni ərazilərini işğal etmək olub. Lakin o zaman ermənilər istədikləri nəticəni əldə edə bilməyiblər. Prezident İlham Əliyev "Euronews" televiziyasına verdiyi müsahibəsində dediyi kimi: "Ordumuz onları məğlub etdi. Sonra avqustun 23-də onlar bizim mülki şəxslərimiz və hərbçilərimizə qarşı terror aktları törətmək üçün diversiya qrupu göndərdilər. Bu da onlar üçün uğursuz oldu. Çünki diversiya qrupunun başçısı saxlanıldı və o, eynilə mənim indi dediklərimə dair ifadələr verir. Sentyabrın sonunda onlar bizim kəndlərimizə və şəhərlərimizə qarşı genişmiqyaslı hücuma keçdilər...".

Dövlətimizin başçısı müsahibəsində fikrini davam etdirərək bildirib ki, indiyədək 900 ev tamamilə dağılıb və ya zərər çəkib, mülki şəxslər arasında çox sayda tələfat və yaralı olub. Hazırda Ermənistan çox acı məğlubiyyətlə üzləşəndə onlar atəşkəs üçün yalvarırlar: "Atəşkəsi onlar özləri pozdular, Ermənistan qoşunlarının tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymurlar. Onlar status-kvonu dəyişməz olaraq saxlamaq istəyirlər. Minsk qrupunun həmsədrləri - ABŞ, Rusiya və Fransa, onların prezidentləri dəfələrlə bəyanatlar veriblər ki, status-kvo qəbuledilməzdir. Ermənistan buna məhəl qoymadı, indi isə Azərbaycan özü status-kvonu dəyişir və düşünürəm ki, bu, münaqişənin ən tez zamanda həlli istiqamətində mühüm addım olacaq".

Prezident İlham Əliyev hər iki müsahibəsində bəyan edib ki, Azərbaycan indiyədək heç bir təxribata əl atmayıb. Bu, hazırda da belədir. Sadəcə olaraq, dövlətimiz öz maraqlarını müdafiə edir, mövqeyini dəstəkləyir. Ölkəmizin rəhbəri dəfələrlə bildirib ki, "Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır və bu, həqiqətdir. Ermənistanın baş naziri deyəndə "Qarabağ Ermənistandır", bu, yalandır. Mən deyəndə ki, "Qarabağ Azərbaycandır", bu, həqiqətdir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır… Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***